**ABAK-Az Crowe Ltd**
19/20, Building 2, 2 Salyan Road,
Baku, AZ1023,
Azerbaijan Republic
Tel: +994 (12) 492 7856
Fax: +994 (12) 437 4126
E-mail: abak@crowe.az
**www.crowe.az**

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"ƏQLİ MÜLKİYYƏT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİN**
**İdarə Heyətinə**

### *Rəy*

Biz "Əqli Mülkiyyət Agentliyi" PHŞ və onun törəmə müəssisələrinin (bundan sonra PHŞ) **28** dekabr 2019-cu il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətinin hesabatdan, konsolidə edilmiş məcmu gəlirlər hesabatdan, konsolidə edilmiş kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş konsolidə edilmiş maliyyə hesabatları PHŞ-nın 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### *Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq PHŞ-dən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### *Əhəmiyyətli məsələ*

Biz auditor hesabatına düzəliş etmədən bu konsolidə edilmiş maliyyə hesabatlarına 29 saylı qeydə diqqəti çəkmək istəyirik. Bu qeyd 31 Dekabr 2018-cu il tarixdə bitən il üzrə maliyyə hesabatlarının nə üçün konsolidə edilmədiyini izah edir.

***Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik PHŞ-nı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik PHŞ-nın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər PHŞ-nın konsolidə edilmiş maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Tarix:** 16 Dekabr 2020-ci il
Bakı, Azərbaycan Respublikası